| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **Qanunlar** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **31.10.2017** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **832-VQD** |
| **ADI** | **“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 07-12-2017, Nəşr nömrəsi: 270), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2017, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2200)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **07.12.2017** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **220.070.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **12201710310832** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **07.12.2017** |

**“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununu “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 419; 2001, 3, maddə 143; 2004, 2, maddə 57, 4, maddə 199; 2007, 11, maddə 1052; 2009, 12, maddə 968; 2014, 10, maddə 1153; 2016, 6, maddə 980) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin 1-ci hissəsinin doqquzuncu abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və həmin hissənin onuncu abzası çıxarılsın.

2. 26-cı maddə üzrə:

2.1. adında “Elmi tədqiqat idarələrinin və təşkilatlarının” sözləri “Elmi müəssisə və təşkilatların” sözləri ilə əvəz edilsin;

2.2. birinci və üçüncü hissələrdə “Elmi tədqiqat idarələri” sözləri “Elmi müəssisə və təşkilatlar” sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 26-1-ci maddə əlavə edilsin:

“Maddə 26-1. Əhalinin sanitariya-epidemioloji salamatlığının təmin edilməsi sahəsində elmi tədqiqatlar

26-1.1. Əhalinin sanitariya-epidemioloji salamatlığının təmin edilməsi sahəsində elmi tədqiqatların istiqamətləndirilməsini və əlaqələndirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilat həyata keçirir.

26-1.2. Əhalinin sanitariya-epidemioloji salamatlığının təmin edilməsi sahəsində elmi tədqiqatlar “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada maliyyələşdirilir.”.

4. 33-cü maddənin 1-ci hissəsinin beşinci abzasında “elmi tədqiqat idarələri” sözləri “elmi müəssisə və təşkilatları” sözləri ilə əvəz edilsin.

5. 34-cü maddənin 1-ci hissəsinin 2-ci bəndində “elmi tədqiqat idarələrinə” sözləri “elmi müəssisə və təşkilatlara” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2017-ci il
832-VQD